İPƏK YOLU, No.1, 2024, səh.98-104
https://doi.org/10.30546/1810-911X.2024.1.98

# AZƏRBAYCAN RESPUBLİKASININ MÜXTƏLİF DÖVLƏRDƏ İNKİŞAFI: XÜSUSİ İQTİSADİ ZONALARIN BU İSTİQAMƏTDƏ ROLU VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ

**Yusif Nəcəfzadə**

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı, Azərbaycan
e-mail: necefzadeyusif@gmail.com

**Xülasə.** Məqalədə Azərbaycan Respublikasında müxtəlif dövrlərdə yeridilən iqtisadi siyasət və bu siyasətə dəstək olan Xüsusi İqtisadi Zonaların rolu araşdırılmışdır, onların fəaliyyətinin təkmilləşdirilməsi üçün tövsiyyələr verimişdir.

**Açar sözlər:** İnvestisiya, iqtisadiyyat, neft, Xüsusi İqtisadi Zonalar (XİZ).

**DEVELOPMENT OF THE REPUBLIC OF AZERBAIJAN IN DIFFERENT PERIODS: THE ROLE AND IMPROVEMENT OF SPECIAL ECONOMIC ZONES IN THIS DIRECTION**

**Yusif Najafzade**
*Azerbaijan State University of Economics (UNEC), Baku, Azerbaijan*

**Abstract.** The paper examines the economic policy introduced in the Republic of Azerbaijan at different times and the role of the Special Economic Zones that support this policy, and gives recommendations for improving their activity.
**Keywords:** Investment, economy, oil, SEZ.

**РАЗВИТИЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В РАЗНЫЕ ПЕРИОДЫ: РОЛЬ И СОВЕРШЕНСТВОВАНИЕ ОСОБЫХ ЭКОНОМИЧЕСКИХ ЗОН В ЭТОМ НАПРАВЛЕНИИ**

**Юсиф Наджафзаде**
*Азербайджанский Государственный Экономический Университет (UNEC), Баку, Азербайджан*

**Резюме.** В статье рассматривается экономическая политика, проводимая в Азербайджанской Республике в разные периоды, роль специальных экономических зон, поддерживающих эту политику, и даются рекомендации по совершенствованию их деятельности.
**Ключевые слова:** Инвестиции, экономика, нефть, СЭЗ.

## 1. Giriş

Azərbaycan Respublikası 1-ci Qarabağ müharibəsi nəticəsində bir çox istiqamətdə, o cümlədən iqtisadi cəhətdən zəifləmişdi. Ümummilli lider Heydər Əliyev tərəfindən başladılan inkişaf strategiyası ölkə ərazisində fəaliyyət göstərən müxtəlif sektorlara öz müsbət təsirini göstərmişdir. Belə ki, Azərbaycan tarixində ən uğurlu müqavilə olan 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" Azərbaycan iqtisadiyyatında dönüş yaratmışdır. Bu müqavilə Azərbaycanın gələcəyə istiqamətlənən nəhəng inkişaf planı olaraq qələmə alınmışdır. Bu müqavilədən 10 il sonra Azərbaycan xarici neft şirkətləri ilə 21 neft müqaviləsi bağlamış və bu müddət ərzində 60 milyard ABŞ dolları həcmində investisiya cəlb edə bilmişdir [10, s.51]. Əlbəttə Ümummilli lider Heydər Əliyev yaranan yüksək neft gəlirlərinin səmərəli xərclənməsini əsas bilirdi. Neftdən gələn gəlirlər vasitəsilə qeyri-neft sektoruna investisiya və insan kapitalına investisiya Ümummilli lider Heydər Əliyev üçün əsas istiqamətlərdən biri idi. Bu məqsədlə 29 Dekabr 1999-cu ildə Azərbaycan Respublikasının Dövlət Neft Fondu yaradıldı

[14]. 2001-ci ildə 491 milyon USD aktivi olan Neft fondu 2012-ci ildə 39 milyard USD keçmişdir [3, s.19]. Hal-hazırda Azərbaycan Dövlət Neft fondunun 2023-cü il yanvarın 1-nə olan aktivlərinin dəyəri 49 milyard USD-dən artıqdır [5]. Neft Fondu tərəfindən yeridilən siyasətin əsas məqsədi Azərbaycan Respublikasının neftdən əldə etdiyi gəliri digər sektorlara investisiya etmək və qeyri-neft sektorunun inkişafını təmin etmək, dövlət tərəfindən sosial-iqtisadi tərəqqi strategiyalarının və ümummilli layihələrinın maliyyələşdirməsini həyata keçirmək və son olaraq neftdən əldə olunan gəlirin gələcək nəsil arasında bərabər bölüşdürülməsini həyata keçirməkdir [11, s.242]. Əlavə olaraq Azərbaycanın Şərq-Qərb ticarət xətti sayılan “Böyük İpək Yolu” layihəsinin təməlini məhz Heydər Əliyev qoymuşdur. Buradakı əsas məqsəd Azərbaycan üzərindən yükdaşıma fəaliyyətinin gücləndirilməsi və logistik fəaliyyətin artırılması idi. Bu inkişaf strategiyalarının yaradılmasında Ümummilli lider Heydər Əliyevin danılmaz rolu mövcuddur. Hazırda “Böyük İpək Yolu” layihəsi çərçivəsində Mərkəzi Koridorun fəaliyyətinin gücləndirilməsi məqsədilə Bakı limanı fəaliyyətə başlamışdır [7, s.84]. Heydər Əliyevin 10 illik fəaliyyəti çərçivəsində bu əsas iqtisadi istiqamətlərdə uğurlar əldə edilmişdir.

Ümummilli lider Heydər Əliyevin vəfatından sonra belə bu inkişaf strategiyası dəyişilməz olaraq qalmışdır. Hal-hazırda prezident İlham Əliyev tərəfindən bu iqtisadi strategiya daha geniş və böyük miqyasda davam edir. Bu strategiya Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2021-ci il Fevralın 2-də imzalanan “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sərəncamında öz əksini tapmışdır. Bu iqtisadi-sosial inkişaf strategiyasında 5 əsas prioritet və onların hər birinin həyata keçirilməsi üçün müxtəlif məqsədlər qoyulmuşdur. Burada 2 əsas prioritet və onların məqsədi iqtisadi inkişaf strategiyasını izah edir. Bunlar aşağıdakılardır:

**1.** *Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat* - Azərbaycan iqtisadiyyatının davamlı şəkildə artması və mövcud iqtisadiyyatımızın dayanıqlı olması üçün dövlət qarşıya iki əsas məqsəd qoymuşdur:

1.1. *Davamlı və yüksək iqtisadi artım* - Davamlı və yüksək iqtisadi artım rəqabətqabiliyyətli iqtisadiyyatın təməlidir. Bu məqsədə nail olmaq üçün xaricdən və o cümlədən daxildən yeni yaradılacaq layihələrə investisiya cəlb etmək, mövcud bazar iqtisadiyyatında stabilliyi qoruyub saxlamaq, inflyasiya səviyyəsinin hazırki bazar strukturuna uyğun stabil saxlamaq lazımdır.

1.2. *Daxili və xarici təsirlərə dayanıqlıq* - Azərbaycanın xarici təsirlərdən asılılığını azaltmaq və xarici iqtisadi təzyiqlərə qarşı dözümlülük, o cümlədən xaricdə baş verən qlobal böhranın Azərbaycan iqtisadiyyatına təsiri minimuma azaltmaq əsas məqsədlərdən biridir.

2. *İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış* - Azərbaycan Respublikası tərəfindən 27 Sentyabr 2020-ci ildə başladılan II Qarabağ müharibəsi 44 gün ərzində 10 Noyabr 2020-ci ildə yekunlaşdı. Bunun nəticəsində işğaldan azad olunmuş ərazilərdə yenidənqurma və infrastruktur işləri aparılaraq didərgin düşmüş yerli əhalinin öz torpaqlarına qayıtmasını təmin etməkdir. Eyni zamanda Qarabağ ərazisinin yenidən qurulması Azərbaycan iqtisadiyyatına

müsbət təsir göstərəcəkdir. Bunları əldə etmək üçün aşağıda göstərilən 2 əsas məqsəd həyata keçirilməlidir:

2.1. *Dayanıqlı məskunlaşma* - Yenidən qayıdış çərçivəsində yerli əhalinin həmin ərazidə uzunmüddət boyunca qalmasını sağlamaq başlıca məqsədlərdən biridir. Bunun üçün dövlət öz büdcəsindən müəyyən dövrlər üzrə 32 milyard manatdan çox vəsait ayırmağı planlaşdırır.

2.2. İqtisadi fəaliyyətə reinteqrasiya - Hal-hazırda yerli insanlardan əlavə orada yaşayacaq insanlar üçün daimi iş yerlərinin yaradılması prosesi də davam edir. Qarabağın zəngin təbii sərvətləri və əlavə olaraq orada yaradılan 2 yeni sənaye parkı Qarabağın iqtisadi inkişafına və Azərbaycanın iqtisadi fəaliyyətinə tövhə verməsinə imkan verəcəkdir.

## 2. Azərbaycanda iqtisadiyyata qoyulan investisiyalar və Xüsusi İqtisadi Zona

Göründüyü kimi Azərbaycan Respublikasının uzunmüddətli iqtisadi inkişaf planı mövcuddur və bu plan çərçivəsində Azərbaycan öz iqtisadiyyatını sabit saxlamalı və büdcə fəaliyyətini doğru idarə etməlidir. Ümumilli lider Heydər Əliyev tərəfindən qoyulan bu strategiyanın davam etdirilməsi labüddür.

Əlbəttə yuxarıda göstərilən şərtlərin yerinə gətirilməsi bir anda baş veriləcək bir şey deyil. Bunun üçün hər sektor üzrə inkişaf planı hazırlanmalı və iqtisadiyyatın canlanması üçün investisiya strategiyası tədqiq edilməlidir. İnvestisiyaların istiqaməti də həmçinin, bu inkişafa öz tövhəsini verir. Belə ki, yalnız bir sektora edilən investisiya olduqca təhlükəli və etibarsızdır. İndiki dövrdə Azərbaycan həm neft, həm də qeyri-neft sektoruna investisiyalar cəlb etməyi bacarmışdır. Bu investisiyaların əsas aşağıda göstərilən qrafiklərdə 2006-2021 illərində Azərbaycan iqtisadiyyatına cəlb edilmiş investisiyaların neft-qaz və qeyri-neft-qaz sektoru üzrə payı göstərilmişdir:




**Qrafik 1.** Azərbaycan iqtisadiyyatına cəlb edilmiş investisiyalar(mln. ABŞ dollarla)

**Mənbə:** Statistika Komitəsi

Göründüyü kimi, neft-qaz sektoruna edilən investisiyalar 2006-2021-ci illər üzrə stabil olaraq qalmış qeyri neft-qaz sektorunda isə artma və azalma müşahidə edilmişdir. Bu da Azərbaycan iqtisadiyyatına cəlb edilən investisiyaların həcminin 2009-dan etibarən artma, amma 2015-ci ildən sonra isə enmə tendensiyasını yaratmışdır [16]. Burada 2009-dan etibarən artım 2008 maliyyə böhranı nəticəsində artmağa başladı. Burada inkişaf etmiş ölkələrdə baş verən iqtisadi böhran inkişaf etməkdə olan ölkələrə, həmçinin Azərbaycana investisiya axınını gücləndirdi. Lakin burada Azərbaycanda yeni yaradılan Sumqayıt Kimya-Sənaye parkının xüsusi rolu oldu [18, s.75]. Belə ki, 2011-ci ilin sonunda yaradılan bu park 2012-2014-cü illərdə özəl sektordan gələn investisiyaların həcmində mühüm rol oynamışdır. Lakin 2015-ci ildə baş verən neft böhranı bu tendensiyaya olduqca mənfi təsir göstərmiş və sonrakı illərdə aşağı həddə qeyri-neft sektoruna investisiya müşahidə olunmuşdur. Neft sektoru isə qeyd olunan illər üzrə stabil trenddə qalmışdır. Əlbəttə Azərbaycanda yerləşən neft yataqları və hazırki geopolitik vəziyyət neft-qaz sektorunun perspektivini artırır [17, s.414]. Buna Azərbaycanla Avropa İttifaqı arasında bağlanan yeni qaz müqaviləsi daxildir ki, burada Azərbaycan Avropaya qaz nəqlini sonrakı illərdə 2 qatına çıxaracaqdır [6, s.307]. Əlbəttə bu nəticəni əldə etmək üçün qaz nəqlinə və qaz xammalının yerdən çıxarılmasına əlavə investisiya cəlb ediləcəkdir ki, bu da gələcəkdə neft-qaz sektoruna cəlb olunan investisiyalarda öz əksini tapacaqdır. Amma bu investisiya uzunmüddətli dövrdə milli prioritetlər strategiyasının "daxili və xarici təsirlərə dayanıqlıq" məqsədinin əldə olunmasına çətinlik yaradacaqdır.

Lakin gələcək tendensiyanı və perspektivi nəzərə alsaq, Azərbaycana qeyri-neft sektoruna gələ biləcək investisiya həcminin artması müşahidə edilə bilər. Belə ki, azad olunmuş torpaqlarda yaradılacaq istehsal infrastrukurları, filiz yataqları eləcə də filiz yataqlarından yaradıla biləcək məhsulların istehsalı Qarabağın iqtisadi perspektivini artırır. Əlavə olaraq, Qarabağ ərazisində yaradılan 2 yeni sənaye parkı olan Ağdam Sənaye Parkı və "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı bu ərazinin perspektivinə daha da təkan verir

Yuxarıda göstərilən investisiya növü ümumi investisiyaları özündə təcəssüm edir. Ölkə iqtisadiyyatında əsas kapital investisiya önəm daşıyır. Belə ki, bu investisiyalar birbaşa istehsalın yaranmasına və ölkə ərazisində işsizliyin azalmasına gətirib çıxarır. Əlavə olaraq bu kimi investisiya uzunmüddətli dövr üçün ölkə üzrə perspektivli layihələrin gerçəkləşməsi və istehsal sferasının qurulması üçün vacibdir. Son olaraq bu tip investisiyalar son məhsul nəzəriyyəsinə əsasən, digər istehsal sahələrinə investisiyaları da təşviq edəcəkdir. Bunun üçün ölkə daxilində rəqabətcil bazar yaradılmalı və ölkə ərazisinə ediləcək investisiya prosesləri ilə bağlı standart qanunvericilik olmalıdır.

Aşağıdakı qrafikdə özəl mülkiyyət üzrə əsas kapitala edilən daxili və xarici investisiyalar göstərilmişdir.




**Qrafik 2.** Azərbaycan iqtisadiyyatına cəlb edilmiş investisiyalar(mln. ABŞ dollarla)
**Mənbə:** Statistika Komitəsi

2008 böhranından sonra 2009-cu ildən sonrakı illərdə xarici özəl sektora investisiyalarda ciddi artım müşahidə olunmuşdur. 2016-cı ildə pik həddə, yəni 7.605 milyard manat sərmayə cəlb edilmişdir. Lakin neft böhranı nəticəsində bu rəqəm 2017-2020 illər arasında uyğun olaraq 6.957 milyard, 4.092 milyard, 4.687 milyard, 4.471 milyard olmuşdur. 2021-ci ildə isə bu rəqəm 3.796 milyard olmuşdur. Əlbəttə 2016-cı ildən etibarən daxili kapital qoyuluşlarının artması ümumi həcmdə azalmağı dayandırmışdır.

**Nəticə.** Yuxarıda göstərilən ilkin rəqəmlərə və ehtimal olunan optimistik yanaşmaya əsasən, müxtəlif nəticələr əldə edə bilərik. Aparılan araşdırma və göstərilən rəqəmlər əsasında onu deyə bilərik ki, Azərbaycanın 2011-2014-cü illərdə əldə etdiyi iqtisadi artım sonrakı dövrlərdə aşağı düşməyə başlamışdır. Nəticələrin zəif olmasına baxmayaraq Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan iqtisadi inkişaf strategiyası davam etdirilir. Bu strategiyanın gücləndirilməsi və gələcək inkişafımızda iqtisadi artıma təkan vermək üçün Azərbaycan qeyri-neft sektoru üzrə edilən investisiya mənbələrini təşviq etmək lazımdır. Ölkə olaraq ən pis ssenari ilə hazırlanmaq bizim iqtisadi dayanıqlılıq qabiliyyətimizi eyni zamanda ortamüddətli dövrdən etibarən iqtisadi inkişaf etməyimizə yol aça bilər.

Bunun üçün Azərbaycan Xüsusi İqtisadi Zonanın (XİZ) tətbiqini genişləndirməli və XİZ zonalarına xaricdən və eyni zamanda daxildən investisiya prosesini gücləndirməlidir. XİZ zonaları digər zonalardan fərqli olaraq xüsusi vergi-gömrük rejiminə və eyni zamanda idxal-ixrac siyasətinə malikdir. Bu zonalarda yaradılan infrastruktur və onlar üzərində tətbiq edilən rüsum investorlar üçün qənaətbəxşdir. İnvestorların buradakı tək fəaliyyəti həmin zona üzrə lisenziya alaraq həmin zonada istehsal və yaxud xidmət sferasının yaradılmasıdır.

XİZ zonaları üzrə etdiyim ilkin araşdırma nəticəsində və əldə olunan məlumatlara əsasən, aşağıdakı təkliflər ölkə iqtisadiyyatımıza müsbət təsir göstərə bilər:

1. *Sənaye parklarının və Azad İqtisadi Zonaların artırılması* - Hal-hazırda Azərbaycanda fəaliyyət göstərən 7 Sənaye parkı və 1 Azad İqtisadi Zona mövcuddur. Bu 2 tip XİZ növü XİZ anlayışının əsasını təşkil edir. Azad İqtisadi Zona olan Ələt AİZ hal-hazırda hazırlanma mərhələsindədir. Sənaye Parkları ölkə ərazisində qeyri-neft sektorunun ÜDM dəyərinin 20%-dən artıq hissəsini özündə cəmləyə bilir. Bu sənaye parklarından 4-ü Bakıda, 2-si Qarabağda (hər ikisi tikinti mərhələsindədir) və 1-i Mingəçevirdədir. Göründüyü kimi ölkə ərazisində qeyri-mütənasib sənaye parkları yaradılmışdır. Eyni zamanda bu XİZ zonaları içərisində sadəcə bölgələr arasında inteqrasiyanı artırmaq eləcə də həmin bölgələrin inkişafı üçün bölgələr üzrə ixtisaslaşma tədqiq edilməli və hər bölgə üzrə yeni sənaye parkları yaradılmalıdır. Buraya cəlb edilən investorlarla dövlət büdcəsi vasitəsilə investisiya edilməsi investorlarda rahatlıq yarada və eyni zamanda dövlət büdcəsinə vergi axını güclənə bilər. Bu proses həm də ölkədə işsizlik səviyyəsinin aşağı düşməsinə və istehsal prosesinin güclənərək daxili bazarda məhsul təklifini artıra bilər.

2. **Mövcud sənaye parkları üzrə idarəetmə -** XİZ zonalarına ayrı olaraq baxdıqda 7 Sənaye parkı içərisində sadəcə Sumqayıt Kimya-Sənaye parkı bu prosesdə aktiv iştirak edə bilir. Eyni zamanda onlar üzərində idarəçilik İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA) həyata keçirir. Lakin bu sənaye parklarından Balaxanı Sənaye Parkı Azərbaycan İnvestisiya Holdingi tərəfindən idarə olunur. Sənaye parklarının vahid bir qurum tərəfindən idarə olunması və onların maliyyə və statistik göstəricilərinin toplanaraq qeydə alınması onların fəaliyyət planını incələməyə və göstərdikləri nəticələri müşahidə etməyə imkan verəcək. Eyni zamanda agentlik tərəfindən idarə olunacaq sənaye parkları üzrə xüsusi idarə etmə forması və xaricdən investisiya etməsi üçün xüsusi investisiya proqramı yaradılması barədə hüquqlar verilməlidir.

3. **Dövlət tərəfindən bu XİZ zonalarına investisiyaların gücləndirilməsi -** Dövlət tərəfindən əsas kapitala investisiya bir çox xərclərin və eyni zamanda risk faktorunun aşağı düşməsinə yol açır. Bu investorlarda həmin proyektlər üzrə inamı artırır və investisiya axınını gücləndirir.

Yuxarıda göstərilən istiqamətlər üzrə XİZ zonalarına və xüsusilə sənaye parklarında islahatların aparılması Azərbaycan iqtisadiyyatına və ən əsası Heydər Əliyev tərəfindən qoyulan ümummilli iqtisadi strategiyanın əldə olunmasına öz tövhəsini verəcəkdir.

## Ədəbiyyat


1. Abbasov T.A. (2018), Free Economic Zones: International practice and Azerbaijani model. Master dissertation, Azerbaijan State University of Economics, Baku, Azerbaijan. https://unec.edu.az/application/uploads/2018/11/Abbasov-Tural-Asif.pdf
2. Abutalibov R. (2013), Xüsusi İqtisadi Zonaların sosial-iqtisadi inkişafa təsiri (The effect of Special Economics Zones on socio-economic development).

3. Aras O.N., Süleymanov E., Zeynalov A. (2010), Azərbaycan Respublikasında qeyri-neft sektoru üzrə idxal-ixracın mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi. Journal of Qafqaz University, No.29, 50-60.
4. Azərbaycan Respublikası Maliyyə Nazirliyi. https://maliyye.gov.az/
5. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/
6. Əliyeva T. (2023), Heydər Əliyevin Azərbaycanın enerji sektorunun (qaz sektoru) inkişafına töhvəsi. Turan-Sam, Vol.15, Sp. Issue, 303-314.
7. Hasanli Kh., Mansimov S. (2021), Azerbaijan's position in the East-West transport corridor. International Conference on Problems of Logistics, Management and Operation in the East-West Transport Corridor (PLMO), 81-86.
8. Həsənova T. Dövlətin investisiya siyasəti və qeyri-neft sektorunun inkişaf problemləri. Tikintinin iqtisadiyyatı və menecment, No.4, 61-66.
9. https://www.economy.gov.az/az
10. İsmayılov İ. (2007), Azərbaycan Nefti XX Əsrdə (hərbi-siyasi baxış). Bakı.
11. Mahmudova Ə.Ə. (2021), Dövlətin investisiya siyasətinin əsas istiqamətləri. Konfrans materialları, 241-243.
12. Məhərrəmov R. (2019), Ələt Azad İqtisadi Zonasında vergitutma məsələləri. Azərbaycanın Vergi Jurnalı, Vol.1, No.138, 61-70.
13. Pakdeenurit P., Suthikarnnarunai N., Rattanawong W. (2014), Special Economic Zone: Facts, roles and opportunities of investment. In Proceedings of the International MultiConference of Engineers and Computer Scientists, Vol.2, 1-5.
14. Rüstemov İ. (2013), Müstəqilliyin ilk illərində Azərbaycanda bazar infrastrukturlarının formalaşmasında Heydər Əliyevin rolu. Asia Minor Studies.
15. Sultanova A. Regionların sosial-iqtisadi inkişafında Azad İqtisadi Zonaların rolu.
16. Süleymanov E., Zeynalov A. (2009), Qlobal maliyyə böhranının Azərbaycan iqtisadiyyatına təsiri. Journal of Qafqaz University, 28.
17. Tapdıqlı N.N. (2021), 2003-2017-ci illərdə neft sektorunun inkişafı. Magistrantların XX Respublika Elmi Konfransı, 413-414.
18. Vəliyev C. (2022), Azərbaycanda qeyri-neft sənayəsinin inkişafi üçün həyata keçirilən tədbirlərin nəticələrinin təhlili. Journal of Baku Engineering University, Vol.6, No.2, 139.
19. World Bank Group. (2017), Special Economic Zones: An operational review of their impacts. World Bank, Washington. https://openknowledge.worldbank.org/handle/10986/29054